# Tolerantlıq Azərbaycanda həyat tərzinə çevrilib

***Avqustun 31-də Qazax rayonunda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi (DQİDK) və rayon icra hakimiyyətinin birgə təşkilatçılığı ilə "Multikultural və tolerant dəyərlərimiz: tarixilik, varislik, müasirlik" mövzusunda regional konfrans keçirilib. Əvvəlcə iştirakçılar ümummilli lider Heydər Əliyevin rayon mərkəzindəki abidəsini ziyarət ediblər.***



AZƏRTAC xəbər verir ki, konfransda Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı, Qazax Rayon İcra Hakimiyyətinin başçısı Rəcəb Babaşov, Qafqaz Müsəlmanları İdarəsinin nümayəndəsi, eləcə də bölgədə fəaliyyət göstərən hüquq mühafizə orqanlarının rəhbərliyi, dini işlər üzrə komissiyanın üzvləri, YAP rayon təşkilatının rəhbərliyi, dini icma sədrləri, din xadimləri, idarə və müəssisə rəhbərləri, ictimaiyyət nümayəndələri, gənclər iştirak ediblər.

Konfrans dini ekstremizm və radikalizmin fəsadlarından bəhs edən "Fitnə" sənədli filminin nümayişi ilə başlayıb.

Rayon icra hakimiyyətinin başçısı Rəcəb Babaşov konfransı açaraq bildirib ki, Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu siyasət nəticəsində ölkəmizdə müxtəlif dinlərə etiqad edən insanlar mehriban və qarşılıqlı hörmət şəraitində yaşayırlar. Respublikamız dünyada tolerantlıq və multikulturalizm nümunəsinə çevrilib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədr Mübariz Qurbanlı multikultural və tolerant dəyərlərimiz haqqında məlumat verib. Qeyd edib ki, Azərbaycan dünyada tolerant ölkə kimi tanınır və tolerantlıq bizim həyat tərzimizə çevrilib.

Dövlət Komitəsinin sədri diqqəti din pərdəsi altında aparılan münaqişələrə çəkərək bildirib ki, dünyada aparıcı güclər din amilindən geosiyasi maraqları üçün istifadə edir, İslamı siyasiləşdirərək qarşıdurma yaratmaqla onu gözdən salmağa yönələn siyasət həyata keçirirlər. Din amilindən siyasi vasitə kimi istifadə olunduğu bir dövrdə Azərbaycan dünyaya qlobal təhlükəsizlik məsələlərində töhfə verən bir ölkəyə çevrilib. Komitənin sifarişi ilə hazırlanan "Fitnə" filmindən də danışan M.Qurbanlı qeyd edib ki, sənədli filmdə dini radikalizmlə mübarizənin dini, psixoloji, hüquqi, siyasi və mənəvi tərəfləri işıqlandırılır.

Konfransda müxtəlif dini cərəyanlar və onların fəaliyyət metodları haqqında ətraflı məlumat verilib. Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.



nizmlərinin tətbiq olunduğunu deyib. Bildirilib ki, Sumqayıt Kimya Sənaye Parkı, Balaxanı Sənaye Parkı və Qaradağ Sənaye Parkı artıq fəaliyyət göstərir və burada rezidentlərin səmərəli fəaliyyəti üçün güzəştli rejim yaradılıb. Mingəçevir Sənaye Parkının təşkili istiqamətində tədbirlər həyata keçirilir. Kiçik və orta sahibkarlığın inkişafı baxımından əhəmiyyətli olan Neftçala Sənaye Məhəlləsində hazırda istehsal sahələrində avadanlıqların yerləşdirilməsi və digər hazırlıq işləri aparılır. Sahibkarlar tərəfindən Neftçala Sənaye Məhəlləsində fəaliyyət göstərmək üçün ümumi investisiya məbləği 40 milyon manatdan çox olan 8 layihənin icrası və 500-dən çox yeni iş yerinin açılması nəzərdə tutulur. Masallı Sənaye Məhəlləsinin təşkili işləri davam etdirilir. Eyni zamanda, dövlət başçısının müvafiq sərəncamına uyğun olaraq, Qaradağ rayonunun Ələt qəsəbəsində yeni Bakı Beynəlxalq Dəniz Ticarət Limanının ərazisi daxil olmaqla azad ticarət zonası tipli xüsusi iqtisadi zonanın təşkili istiqamətində işlər görülür.

Vurğulanıb ki, investisiyaların təşviqi Azərbaycanda həyata keçirilən iqtisadi islahatların mühüm istiqamətlərindəndir. İnvestisiya fəaliyyətinin genişləndirilməsi, biznes mühitinin yaxşılaşdırılması, sənaye istehsalının artırılması məqsədilə Azərbaycan Respublikası Prezidentinin müvafiq Fərmanı ilə "İnvestisiya təşviqi sənədinin verilməsi Qaydası" təsdiq olunub. İnvestisiya təşviqi sənədini və texnikanın, texnoloji avadanlıqların və qurğuların idxalı üçün təsdiqedici sənədi alan sahibkarlar Vergi Məcəlləsində və "Gömrük tarifi haqqında" Qanunda nəzərdə tutulmuş güzəştlərdən yararlanmaq imkanı əldə edərək, mənfəət və gəlir vergisinin 50 faizini, əmlak və torpaq vergisini, idxal etdikləri texnika, texnoloji avadanlıq və qurğular üzrə əlavə dəyər vergisi və idxal rüsumlarını 7 il müddətində ödəməkdən azad olunurlar. Artıq bir çox sahibkarlar bu imkandan yararlanırlar. Sonra "Mətanət A" şirkətinin direktoru Elxan Bəşirov, "Alman Fasad Texnologiyaları" MMC-nin nümayəndəsi Uğur Babayev, "Karvan-L Eko" MMC-nin direktoru Əbülfəz Qafarov, "Rich-S.A" MMC-nin direktoru Əvəz Səfərli və "Buta Group" MMC-nin direktoru Bəşir Quliyev investisiya təşviqi sənədinin iş adamlarının fəaliyyətlərini daha da genişləndirmələri üçün əlverişli imkan yaratdığını qeyd edib, sahibkarlığın inkişafına göstərdiyi diqqət və qayğıya görə ölkə rəhbərliyinə minnətdarlıqlarını bildiriblər. Sonda iqtisadiyyat nazirinin müavini Niyazi Səfərov şirkət rəhbərlərinə investisiya təşviqi sənədlərini təqdim edib.